*Araslı  Nüşabə. Nizami Gəncəvi sənətində doğma mühüt və təbiət*
*// Elmi əsərlər,2022,2(15),iyul-dekabr,s.3-11.*

**ƏDƏBİYYATŞÜNASLIQ.**
**Mətnşünaslıq. Mənbəşünaslıq.**

UOT: 82-1.512.161

**Nüşabə Araslı,**
*filologiya elmləri doktoru, professor*
*AMEA-nın müxbir üzvü,*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Bakı ş. H.Cavid prospekti, 115*
e-mail: lalepashayeva1989@gmail.com

# NİZAMİ GƏNCƏVİ SƏNƏTİNDƏ DOĞMA MÜHÜT VƏ TƏBİƏT

**Xülasə.** Nizami sənəti həmişə müasir məna daşımış, şairin bütün dövrlərdə aktual məna kəsb edən yüksək ideyaları əsrlər boyu öz əhəmiyyətini qorumuşdur. Onun oxucu qarşısında qoyduğu bir çox bəşəri əhəmiyyətli problemlər bu gün də əsrimizin ən mühüm hadisələri ilə səsləşir, qlobal xarakterli və həlli vacib məsələlər olaraq qalır. Tədqiqi belə vacib məsələlərdən biri də Nizaminin doğma mühütlə bağlılığının, hər şeydən əvvəl şairin vətəni və mənsub olduğu xalqın tarixi taleyi, arzu, istək, sevinc və nisgilini ifadə etmək kimi digər səciyyəvi cəhətlərin ortaya qoyulmasıdır. Bu məqsədlə məqalədə Nizaminin dünya şöhrətli "Xəmsə"sindən doğma mühit və təbiətlə bağlı hissələr seçilib, onların işlənmə məqamları müəyyən olunub və şairin ümumi yaradıcılığı kontekstində təhlil edilib.

**Açar sözlər:** *yurda məhəbbət, torpağa qayğı, kəndli məişəti, sənətkar zəhməti, rəngarəng təbiət təsvirləri*

**Giriş.** *Nizami Gəncəvi öz əsərlərində yaşayan və öz şərəfli adı ilə birlikdə doğma xalqının gözəl adət-ənənələri, onun nəcib sifətləri və tarixini də yaşadan nadir sənət dahisidir. Zəmanəsinin rəvac elmlərinə yaxından bələd, müxtəlif elmi-fəlsəfi görüşləri dərindən mənimsəmiş ensiklopedik məlumatlı şairin söz sənətinin özünə qədərki fikir və poetik nailiyyətlərini əhatə edən zəngin irsi onun boya-başa yetirən doğma zəminlə də yaxından bağlıdır. Nizami sənətində Azərbaycanın siyasi-iqtisadi və mədəni yüksəlişi şairin dünyaya göz açdığı qədim mədəniyyət mərkəzi Gəncənin də əzəmətli keçmişi, keşməkeşli tarixi və o zamankı qaynar həyatı öz əksini aydın tapmaqdadır. Nizami doğma xalqının maddi və mənəvi qüdrətini ölməz əsərlərində sevə-sevə tərənnüm etmiş, vətənin təkrarsız təbiəti, mənəvi zənginliklərindən məhəbbətlə bəhs edərək dünya mədəniyyəti xəzinəsinə görkəmli şəxslər bəxş edən bu qədim diyarın şöhrətini daha da ucaltmış, onu şairlər vətəni, sənətkarlar yurdu kimi bütün dünyada tanıtmışdır. Bu baxımdan Nizami əsərləri həm də böyük şairin ana vətən, doğma xalqı, qurub yaradan zəhmətkeş insanın fədakar əməyi, yenilməz hünəri, yüksək düşüncə və işıqlı zəkasına təmiz sevgi və pak duyğularının tərənnümünə həsr olunan solmaz sənət abidələridir.*

Nizamin poeziyasının Şərq bədii fikir tarixinə gətirdiyi yüksək bəşəri ideallar ilə yanaşı, onun özünəməxsus sənət ecazları, poetik nailiyyət və bədii kəşfləri də şairin yurdu və onun təbii, mənəvi gözəlliklərindən ayrılmazdır. Şair *"dünya ticarət yollarının kəsişdiyi mühüm mədəniyyət mərkəzi olan Gəncədə"* (H.Araslı) yazıb başa vurduğu əsərlərində hələ uşaqlıq illərindən gördüyü, şahidi olduğu və yaddaşında bilavasitə saxladığı tarixi hadisə və əlamətdar məqamları da məharətlə canlandırmış, ayrı-ayrı

xalqların – türk, ərəb, fars, yunan, hindli, çin, kürd, yəhudi, zənci və başqa nümayəndələrinin obrazlarını yaratmış, islam mədəniyyətilə yanaşı, atəşpərəst, nəsrani və başqa görüşlərlə də bağlı maraqlı səhnələr təsvir etmiş, deyim və ifadələr işlətmişdir. Bu özü Nizami sənətinin şairin mənsub olduğu xalqın humanist təbiəti və onu yetirən mühütdən irəli gələn səciyyəvi cizgisidir.

Nizaminin doğma mühütlə bağlılığı hər şeydən əvvəl şairin vətəni və mənsub olduğu xalqın tarixi taleyi, arzu, istək, sevinc və nisgilini ifadə etmək kimi digər səciyyəvi cəhətlərdə də aydın görünməkdədir. Nizami ictimai-siyasi və ədəbi-bədii baxımdan əlamətdar bir mühütün yetirməsi olaraq daha çox doğma zəmindən çıxış etmiş, Gəncənin o zamankı coşqun inkişafı ilə bağlı çoxsaylı real təsvirlərilə fərqlənmişdir. Bu Nizami əsərlərində daha çox şairin insanpərvər görüşlərində, xüsusilə Nizami humanizminin əsas konsepsiyasını təşkil edən fərd və cəmiyyət, insan və təbiət münasibətlərinin bədii əksində daha qabarıq görünməkdədir.

İnsan zəhməti, yaradıcı əmək və zəhmətkeş insanın qüdrətindən ətraflı bəhs edən şairin əsərlərində zəhmət adamları xüsusi rəğbətlə tərənnüm olunmuş, incəsənətin Gəncədə çox geniş yayılmış növləri: rəssamlıq, heykəltəraşlıq, memarlıq, nəqqaşlıq, həkkaklıq və s. ilə yanaşı müxtəlif peşələr haqqında da danışılmış, dəmirçilik, zərgərlik, dərzilik, toxuculuq, dulusçuluqla bağlı maraqlı termin, deyim və məsəllər işlənilmişdir. Nizami şeirində şairin əkinçi zəhməti, ümumiyyətlə, kəndli məişəti, bağçılıq, bostançılıq, heyvandarlıq əməyindən alaraq şerə gətirdiyi ifadə və xalq deyimləri, yürütdüyü mülahizələr də maraqlıdır.

Nizami demək olar ki, bütün əsərlərində kəndli əməyi, əkinçi zəhmətinin bəşəri əhəmiyyətindən ehtiramla söz açmış maddi nemət yaradıcılarının fədakar işini ürəkdən alqışlamışdır. Hələ "Xəmsə"nin ilk əsəri olan "Sirlər xəzinəsi"ndə şair özünün əxlaqi-təlimi görüşlərini təsvir etdiyi qoca əkinçinin ağır zəhməti ilə bağlı təsvir edərək ibrətamiz mülahizələrinin təsirli və faydalılığını aydın göstərməyə müvəffəq olmuşdur.

*Ədəb toxumu səpmək vəfa əkməkdir ancaq,*
*Vəfa haqqısa onun hörmətini saxlamaq.*
*Əkinçilər toxumu əziz tutar, bəsləyər.*
*Gələcəkdə götürsün deyə ondan bir bəhər* [1]

Nizami poemaları bu baxımdan izlənilərsə, onda kəndli zəhməti, əkinçi əməyinə ehtiram ifadə edən bir çox maraqlı mülahizələrlə qarşılaşa bilərik. Nizami qeyd edildiyi kimi, bütün əsərlərində müxtəlif münasibətlərlə bu problemə toxunmuş, dogma yurdunun, əmək həyatı, mahir sənətkar obrazları ilə yanaşı, zəhmətkeş kəndli, əkinçi zəhmətinə də dərin rəğbətini bildirmişdir. Bu dediklərimizə dair Nizami əsərlərində çoxlu nümunələr gətirmək olar. Belə nümunələrdə az bir qismi üzərində dayanmaq istəyirik. "Xosrov və Şirin"də ovdan Şirinin sarayına gələn Xosrovun cah-cəlalla qarşılanmasını təsvir edən səhnədə belə haşiyə beytlərilə oxucuya müraciətini görürük.

*Çox kəndi zəhmətlə yığar yüz xırmən,*
*Bircə arpa almaz bu yüz xirməndən.*
*Əkmədən çox məhsul alanlar da var,*
*Gör nələr törədir qoca ruzigar?* [2]

Şairin zəhmətə ehtiramını aydın ifadə edən belə lakonik mənalı beytlərlə çox yerdə rastlaşmaq mümkündür. Bütün bunlar da şairin kəndli məişətinə mənən yaxın olmasını

təsdiq edir. Nizaminin belə səmimi ricətlərində onun ürək sözləri zəhmət adamları ilə bağlı sevinci, kədəri, ümidi və inamı da aydın duyulmaqdadır. Nizaminin kəndlinin çoxcəhətli zəhməti ilə bağlı görüşlərində insanlara fayda gətirən şərəfli əkinçi əməyinə yüksək münasibəti, biçinçilik, meyvəçilik, bağçılıq, bostançılıq və s. ilə bağlı görüşlərində, həm də Nizaminin kəndli məişətinə yaxından bələdliyi, bu sahədə zəngin təcrübə sahibi olduğunu da aydınlaşdırmağa kömək edir. Bütün bunları şair doğma mühütə istinadən söylədiyindən və daha çox bilavasitə müşahidəçisi olduğu səhnələri qələmə aldığından Nizaminin belə mülahizə və təsvirləri son dərəcə təbii və inandırıcı səslənir

*Taxıldan bir fayda gəlirsə ələ,*
*Əkinçi əkinə başlar həvəslə.*
*Taxılın azalsa qədri-qiyməti.*
*Əkinçi buraxar işi-zəhməti.* [5]

Nizaminin zəhmətkeş insanla belə mənəvi yaxınlığı şairin əsərlərinin poetikasında işlətdiyi bədii vasitələrdə də aydın görünməkdədir. Nizami poetikası bu baxımdan izlənilərsə, şairin kəndli həyatının bütün incəliklərinə bələdliyi, bu sahədəki zəngin həyat təcrübəsi və dəqiq müşahidələrini aşkar etmək olar. Aşağıdakı sətirlərə diqqət edək:

*Görürsən torpağam gəl məni bəslə,*
*Könlümün tozunu gəl sil həvəslə.*
*Bahara dönərəm bəsləsən məni,*
*Pis baxsan dərdlərə salaram səni.*
*Torpağa mərhəmət xeyirdir inan.*
*Lütf etsən gül verər, zülm etsən ziyan.* [3]

"Leyli və Məcnun"dan gətirilmiş Məcnunun diliylə deyilmiş bu sətirlərdə torpağın yüksək qiyməti, zəhmət tələb etməsi və çəkilən zəhmət müqabilində əkinçini mükafatsız qoymaması kimi əməklə bağlı düşüncələr poetik əksini tapmaqdadır. Qəhrəmanın özünü torpağa bənzətməsi əgər ilk baxışda onun təvazokarklığı özünü yüksək tutması kimi anlaşılsa da, sonrakı sətirlərdə torpağın özünəməxsus misilsiz dəyəri aydın göstərilir. Yenə həmin əsərdə Məcnun özü üçün işlətdiyi bir bənzətmə ilə bostançı əməyini xatırladaraq deyir:

*Mən milçək toxunan qovun kimiyəm,*
*Kəs məni at gedim saxlama bu dəm.*
*Yoxsa bir toz qopsa üstümdən əgər,*
*O tozdan bostanı xəstələndirər.* [3]

Nizami əsərlərindən gətirilən aşağıdakı misralardakı maraqlı təşbihlər də şairin öz həyati müşahidələrini poetik baxımdan necə məharətlə mənlandırması və əsas məzmunla ustalıqla əlaqələndirməsini aydınlaşdırır:

*Əvvəlcə süd verib sonra dağıdan*
*İnəyə oxşama sən ey hökmüran.* [2]

*Ev uçmuş çıraq da sönmüşdür bu dəm,*
*Bağı talan olmuş bağban kimiyəm.* [3]

*Bir əkin yeriyəm hər yanı bərbad.*
*Bu suyla, torpaqla olacaq abad.*[3]

Gətirilən bu misralarda *"süd verib sonar dağıdan inək", "bağı talan olmuş bağban", "hər yanı bərbad əkin yeri"* kimi təşbihlər bilavasitə kənd həyatından götürülməklə əməksevər şairin insan zəhmətinə olan yüksək münasibətini ifadə edir. Onu da qeyd edək ki, Nizami əsərlərində zəhmətkeş əməyi, zəhmətlə bağlı əlvan poetik vasitələr istənilən qədərdir. Burada isə ancaq mövzuya uyğun olaraq kəndli həyatı ilə bağlı işlənən bənzətməlkərin cüzi bir qismi haqqında danışa bildik.

Nizami əsrlərində ana torpağa qayğı, təbiətə məhəbbət özünü çox yerdə və poetik baxımdan da rəngarəng tərzdə biruzə verməkdədir. Bunu hər şeydən əəvəl şairin bütün poemalarında özünü çox qabarıq göstərən təbiət təsvirlərində müşahidə etmək olar. Nizami şeirlərində bahar fəslinin gözəlliklərinə həsr edilən yüksək şeiriyyəti ilə seçilən parçalar, barlı-bərəkətli payız fəslinin şairanə tərənnümü, qışın özünəməxsus məziyyətlərinin bədii əksində ana təbiətin rəngarəng mənzərələri xüsusi bir məhəbbət, heyranlıq hissilə oxuculara çatdırılır. Belə təsvirlərdə dahi şairin təbii gözəllikləri duymaq, zövq almaq və bütün bunları oxucuya da dərk etdirib sevdirmək məharəti diqqəti cəlb edir. Nizami poemalarında tez-tez rastlanan əlvan təbiət lövhələrində dogma diyarın təkrarsız gözəllikləri şairin sənətinə xas bir poetik qüdrətlə canlandırılmış, ana yurdun ucsuz-bucaqsız düzənlikləri, yaşıl taxıl zəmiləri, güllü-çiçəkli çəmənləri heyranlıqla tərənnüm olunur. Nizami şeirində aşıb-daşan çay, səfalı bulaq, gur yaşıl meşələr, vüqarla dayanan uca dağ, ətri ilə insanı məst edən əlvan çiçəklər bədii məqsədlə ustalıqla əlaqələndirilərək mətnə uyğun mənalandırılmış və dahi şairin poetik amalına uyğun bir tərzdə canlandırılmışdır.

Öz rəngarəngliyi və bədii tutumu ilə bir-birindən gözəl olan belə təsvirlərdə təbiət əsərin məzmunu ilə yaxından səsləşir, baş verən əhvalat və qəhrəmanların əhval ruhiyyəsinə uyğun bir tərzdə cilvələnir. Təbiət gah öz hüsnü ilə ömrün cavanlıq illərinin məhəbbət dolu çağlarını bir daha rövnəqləndirir, gah da cansıxıcı görkəmi ilə həyatını başa vurmuş qəhrəmanların, obrazların ümidsiz vəziyyətlərini poetik baxımdan tamamlayır. Bütün bu deyilənlərə misal olaraq şairin əsərlərindən istənilən qədər nümunə gətirilə bilər. Nizami poemalarında məhəbbəti, sevgililərin görüşü, vüsal anlarının sevinci və başqa şən əhvali-ruhiyyəli səhnələrdə bahar fəsli, günəşin aydın işığı, parlaq səma oxucunun diqqətini cəlb edirsə, kədərli səhnələrin təqdimində gecənin qaranlığı, bağın bağçanın cansıxıcı görkəmi, qurumuş budaqlarda qarğanın uğursuz səsi və s. nəzərə çatır. Dediklərimizə misal olaraq İskəndərin ölüm səhnəsinin təsvirini götürək.

*Gecə öz təxtini yüklədi filə*
*Yer saldı donunu göylərtək nilə,*
*Gün tutdu üzünü qüruba sarı,*
*Saraldı üfüqdə qızıl saçları.*
*Aciz ulduzların əli büküldü,*
*Gümüş dırnaqları bir-bir töküldü.*
*Şahın ağır-ağır yumuldu gözü,*
*Cırmaq-cırmaq oldu qəmərin üzü.*
*Bir örpək toxuyub gecə saçından,*
*Torpağın başına örtdü asiman.* [5]

Burada şairin sevimli qəhrəmanının ölümü ilə bağlı təbiətin də yasa batdığını, matəm saxladığını görürük. Bu isə şairin insanı təbiətlə həmişə mənəvi vəhdətdə götürdüyünü onu təbiətin ayrılmaz parçası, əbədi ziynəti kimi mənalandırdığını təsdiq edir. Şair insani gözəlliyi, insanın qüvvəti, hünərini də təbiətdən alınmış bənzətmə və məcazlarla təqdim edir. Buna görə də Nizami şeirində təbii gözəlliklərin insan əhval-ruhiyyəsinə təsiri, insan məişətinin təbiətlə bağlı kəsb etdiyi sevinc, rahatlıq, qayğı, kədər və s. də öz əhatəli əksini tapmışdır.

*Meyvənin xoş ətri basanda bağı*
*Kəndlilər unudar evi, otağı.*
*Meyvələr çoxalar, bağlar varlanar,*
*Belə bir bolluqdan yer vüqarlanar.*
*Ləl ilə bəzənmiş bir tac kimi nar,*
*Uzaqdan çrraqtək alışıb yanar.*
*Göz vurub qızarmış alma edər naz,*
*Çəkər gərdənini turunc işvəbaz.*
*Tənəklər şərabdan nəşələnərək*
*Sarmaşar almaya, nara sərxoştək.*
*Qarapapaq üzüm sərxoşluğundan*
*Dolar barmağına saçım nihan.*
*Daşınan şərabçın dolu səbətlər,*
*Səbət daşıyamn üzü-gözü tər.*
*Salxımlar sıxılar bağda başabaş,*
*Axışar küplərə şirəsi birbaş.*
*Südəmər körpələr necə qığıldar,*
*Küplər də dolduqca elə uğuldar.* [5]

Öz canlılığı ilə seçilən bu növ təsvirlər şairin bilavasitə müşahidəçisi olduğu hadisə səhnələri əks etdirdiyindən oxucunun qəlbinə asanlıqla yol tapır, vətənin bol neməti, onu yaradanların halal zəhmətinə məhəbbət duyğuları oyadır.

Başqa bir yerdə isə yuxudan ayılarkən sevgilisini yanında ölmüş görən Şirinin vəziyyəti belə bir təbiət səhnəsi ilə oxuculara təqdim olunur.

*Günəştək açılmış bir gül görürsən,*
*Edir təravətlə dünyanı rövşən,*
*Əlində od qılınc bir bulud gələr,*
*Onun vəhməsindən solar bitkilər.*
*Elə dolu yağar qara buluddan,*
*Ki, gül budağında qalmaz bir nişan.*
*Kim deyər ki, bağban yanıb a*ğlamaz,
*Gülün həsrətilə ürək dağlamaz.* [2]

Nizami əsərlərində təbiət şairin ictimai-əxlaqi görüşlərilə də ustalıqla əlaqələndirilir. Təbii vaqiələri xalq məişəti, insan həyatı və ictimai hadisələrlə məharətlə uyuşduran sənətkar özünün fəlsəfi-etik mülahizələrini də təbiətə müraciətlə təsdiq edir, təbiətdən alınmış misalların köməyilə oxucunu dediklərinə inandırır. “Xosrov və Şirin” əsərində bədrəftar oğlu Şiruyyədən Bozorg Ümmidə şikayət edən Xosrova dünyagörmüş bilici təsəlli verərək tövsiyə edir ki:

*Yararmı olasan övlada düşman,*
*Ürək ayrılarmı saldığı bağdan,*
*Nar öz meyvəsini başında saxlar,*
*Odur təpik vurmaz ona hər murdar.*
*Tut öz meyvəsini yerlərə tökər*
*Onuncün təpikdən əziyyət çəkər.* [2]

Yaxud Leyliyə olan məhəbbətinin şiddəti ilə olmazın əziyyətlərə dözən Məcnun ona əlac etmək istəyənlərə belə deyir.

*Canavar quzunu aparsa əgər,*
*Çobanın hay-küyü nə fayda verər?*
*Bir əkin yerini vursa quraqlıq,*
*Yağışın mənası qalarmı artıq.* [3]

Gördüyümüz kimi, dahi şair təbiətə adi seyrçi kimi təkcə gözəlliklərdən zövq almaq, təbii mənzərələri şeirə gətirmək xatirinə müraciət etmir. Təbiət Nizami əsərlərində şairin fikri-estetik görüşlərinin poetik təsdiqləyicisi, hadisələrin oxucuda yaratdığı əhavali-ruhiyyənin bir növ tamamlayıcısı kimi iştirak edir.

Nizami təbiətə rövnəq verən, həyatı daha da gözəlləşdirən insan zəhmətindən razılıqla bəhs etdiyi kimi təbiətin əbədi ziynəti olan gül-çiçək, yaşıl otlar, uca ağacları da qayğı hissi ilə xatırlayır, canlıları vətən torpağının əvəzsiz neməti kimi mənalandıraraq oxucularıda da onlara qarşı mərhəmət məhəbbət duyğuları oyatmağa çalışır:

*O meyvəli ağac olsun bəxtiyar,*
*Sərin kölgəsində dincəlmək olar*
*Həm cana rahatlıq verər kölgəsi,*
*Həm bəzər süfrəni dadlı meyvəsi.*
*Dolğun bar vermişkən belə bir nihal,*
*Daim qalsın cavan tapmasın zaval*
*Bar verən belə bir ağacı gerçək,*
*Rəvamı baltanın ağzına ve*rmək [5]

Təbiətə qayğı ucsuz-bucaqsız səhrələrı canlandırmaqla cəmiyyət və təbii zənginliklərin zəruri tamamlayıcısı olan heyvanları qorumaq kimi həmişə aktual olan bir problem Nizami əsərlərində də əsas mövzulardan biri olaraq şair tərəfindən bütün yaradıcılıq boyu həssaslıqla izlənilməkdədir. Hələ ilk poeması "Sirlər Xəzinəsi"ndə "Firudun və ovçu"nun hekayəsində bu məsələyə toxunan Nizami sonrakı poemalarında da dönə-dönə bu mövzuya qayıtmış hər yerdə özünəməxsus bir həssaslıq, humanist təbiətinə xas bir qayğı ilə canlılara məhəbbət, təbii gözəlliklərə sevgi ruhu tərbiyələndirməyə çalışmışdır. Bu baxımdan Nizaminin "Leyli və Məcnun" əsərində Məcnunun ovçu ilə söhbəti, ceyran və maralı azad etməsi, "Yeddi gözəl"də aclıq illərində şahın quşaları belə doydurmaq tədbiri, "İskəndərnam"dəki şahın qarşılaşdığı ədalətli cəmiyyətdə heyvanların yalnız ehtiyac olduğu təqdirdə ovlanması haqqındakı maraqlı qeydlər də diqqətəlayiqdir. Bütün bunlar dahi şairin insan və təbiət probleminə duyar münasibətini, bu zəruri məsələni və bütün incəliklərinə qədər işıqlandırmaq cəhdlərini göstərir.

*Yamanlıq etməkdən uzaq ol uzaq,*
*Pisliyin əvəzi pislikdir ancaq.*
*Ağaca quşlara dirilik verən,*
*Göyərən nəbatı heç unutma sən.*
*Ağacı yıxanlar tez yuxularlar.*
*Ovçunun axırı dilənçi olar.* [2]
"Leyli və Məcnun"a baxaq:
*Məcnun tez ovçunun yanına qaçdı,*
*Ona neştər kimi dilini açdı.*
*Ey zalım ititək yazığı tutan,*
*Ac qurduğun toru, zülmündən utan.*
*Qoy bu tora düşmüş zavallı əsir,*
*Gəzib bir-iki gün yaşasın şad bir.*
*Gəl, onu sən salma tor havasına,*
*Getsin öz tayı ilə öz yuvasına.*[3]

Yaxud:

*Yazıq heyvanlara nə qəsdin vardır?*
*Onlar həyat üçün yaranmışlardır.*[3]

Bu misralarda şairin canlılara məhəbbəti, onları vətən gözəlliklərinin ayrılmaz parçası kimi sevməsini aydınlaşdırır. Nizami əsərlərində bu məsələ ilə bağlı nəsihətamiz öyüdlər də çoxdur. Şair təbiətdəki müvazinətə ayıq yanaşmağı, təbii qanunauyğunluqlara diqqətli olmağı bu işdə hər cür ədalətsizliyin özünün də cəzasıq qalmadığını bildirir:

*Yol keçərkən gördüm balaca bir quş,*
*Qarışqa ovu üçün pusquda durmuş.*
*Ovunu boğazdan keçirməmişkən,*
*Ayrı quş övladı özünü bilsən.*
*Bəla görəcəksən pislik etdinsə*
*Əvəz verəcəkdir dünya hər kəsə.* [2]

Nizami əsərində ön planda verilən təbiət və cəmiyyətin qarşılıqlı münasibətlərinin belə hərtərəfli həllini şair yaradıcılığının digər bəşəri problemləri o sıradan gəncliyin tərbiyəsi məsələsi ilə də məharətlə əlaqələndirmişdir. Gəncliyi yaşlı nəslin qazandığı maddı və mənəvi uğurların həqiqi varisi kimi mənalandıran dahi şair bilavasitə oxucuya üz tutaraq vətənin bütün sərvətlərini əvəzsiz bir miras kimi qoruyub zənginləşdirməyi və onu açıq üzlə gələcək nəslə təhvil verməyi müqəddəs bir vəzifə kimi qarşıya qoyur:

*Hər şeyi özünüçün əkmək nə yarar?*
*Dünyada hesabsız ruzi yeyən var.*
*Keçənlər zəhmətlə əkdiyi yağdan*
*Gələnlər meyvəni dərmiş hər zaman.*
*Keçənlər bir çox şey qoymuşlar bizə*
*Biz də əkməliyik gənc nəslimizə.* [5]

Bütün bu deyilənlər Nizami sənətinin xəlqliliyi, xalq həyatı ilə yaxınlığı ana təbiətlə cəmiyyətin ayrılmazlığı haqqındakı təlqini görüşlərinin ifadəsi kimi də çox maraqlıdır. Bu yaxınlıq Nizami əsərlərində şairin təsvir etdiyi əhvalat və hadisələrdən çıxardığı bədii qənaətləri, həm də şairin təbiət və heyvanlar aləmindən alaraq rəngarəng biçimdə təqdim elədiyi hikmətamiz beytləri və mənalı aforizmlərində də aydın görünməkdədir:

*Buğda ək ki, sənə dirilik verər,*
*Buğda arasında ot özü bitər.* [2]
*Budaqda vaxtında gülərsə çiçək*
*Ağacın meyvəsi bol olur demək.* [5]
*Göylərdə qaralan elə bulud var,*
*Kəndlinin bağını nazla qurudar.* [2]
*Tənək ağlamasa vaxtında zar-zar*
*Yetirməz axırda sevinclərlə bar.* [4]
*Dəyməmiş bir meyvə gördüyün zaman*
*Ağacı tərpətsən deyərlər kalsan.* [5]
*Bənövşələr kimi utancaq olan*
*Dünyada boy atmaz heç vaxt, heç zaman.*
*Hirslənmiş itlərdə belə adət var,*
*Diş qıcamayanı parçalayarlar.* [4]
Belə beytlər Nizami əsərlərində çoxdur.

***Nəticə.***

*Bütün bunlar şairin iti müşahidəsi, zəngin həyat təcrübəsi təbii hadisələri ictimai baxımdan ustalıqla mənalandırıb poetik bir tərzdə mövzu ilə əlaqələndirmək istedadını nişan verməkdədir. Hamı tərəfindən gündəlik məişətdə müşahidə edilən bir çox təbii hadisələr belə Nizami qələmi ilə düşündürücü məna alır, oxucunu valeh edir, düşündürür.*

*Nizami xalq həyatı ilə bağlı və təbiətdən götürülən belə hikmətli beytləri yerində və məzmunla məharətlə əlaqələndirdiyindən bunlar şairin şeirində son dərəcə mənalı səslənir, Nizami əsərlərinin məna tutumunu artıraraq təsvirlərdəki poetik məntiqi gücləndirir. Buna görədir ki, Nizami sənəti oxucunu təbiətə daha dərindən diqqət yetirməyə, təbii gözəllikləri duymağa, qorumağa yönəldir. Şairin əsərlərində xatırlanan rəngarəng gül-çiçək adları, ağac və bitki növləri, müxtəlif quş və heyvanlar haqqındakı məlumat oxucuya təbiətlə daha yaxından tanış olmaq imkanı yaradır, onda təbiətə olan maraq və məhəbbət hisslərini və təbiətə rövnəq verən insan zəhmətinə olan ehtiram duyğularını da artırır.*

**Ədəbiyyat siyahısı:**

1. Nizami Gəncəvi. Sirlər Xəzinəsi, Bakı: Yazıçı, 1981.
2. Nizami Gəncəvi. Xosrov və Şirin, Bakı: Yazıçı, 1982.
3. Nizami Gəncəvi. Leyli və Məcnun, Bakı: Yazıçı, 1982.
4. Nizami Gəncəvi. Yeddi gözəl, Bakı: Yazıçı, 1982.
5. Nizami Gəncəvi. İskəndərnamə, Bakı: Yazıçı, 1982.

*Araslı Nüşabə. Nizami Gəncəvi sənətində doğma mühüt və təbiət //Elmi əsərlər,2022, 2(15),iyul-dekabr,s.3-11.*

***Нушаба Араслы***

## РОДНАЯ СРЕДА И ПРИРОДА В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ

**Резюме**

Творчество Низами всегда имело современный смысл, а его высокие идеи на протяжении веков сохранили свое значение. Многие важные общечеловеческие проблемы, которые Низами представил читателю в своих произведениях, созвучны с важнейшими событиями нынешнего века и остаются проблемами глобального характера, важными для решения. Одним из них является изучение вопросов привязанности Низами к родной среде, в первую очередь, его верность Родине, стремление выразить желание, мечту, радость, тоску и историческую судьбу народа, которому он принадлежит.

В статье подобраны и привлечены к изучению те части из всемирно известного произведения Низами «Хамса», которые связаны с родной средой и природой, определены точки их разработки и проанализированы в контексте общего творчества поэта.

**Ключевые слова:** *любовь к родине, забота о земле, крестьянская жизнь, труд ремесленника, красочные изображения природы*

***Nushabe Arasli***

## THE NATIVE ENVIRONMENT AND THE NATURE IN NIZAMI GAHJAVI'S CREATIVITY

**Summary**

Nizami's creativity has always had a modern meaning and his prescient ideas have preserved its magnitude over the centuries. The humanistic matters which thinker wrote in his works about them, are still actual and global problems. One of the most important issues to study is poet's loyalty to motherland, and his concern to express the wish, longing and historical fortune of the people he belongs to. For this purpose, in the article, passages related the native environment and the nature were selected from Nizami's world-famous "Khamsa", and analyzed comparatively with the general creativity of the poet by determining how they were developed.

**Key words:** *love to motherland, care to land, peasant's life, artist's labor, colorful pictures of the nature.*

*Redaksiyaya daxil olma tarixi: 30.11.2022*
*Çapa qəbul olunma tarixi: 19.12.2022*

*Filologiya elmləri doktoru, dosent Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur.*